*Bağırov Qəfər Müşfiq oğlu, doktorant,*
*Bakı Biznes Universiteti,*
*Email: bagirov.qafar@hotmail.com*

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ SU EHTİYATLARININ QİYMƏTLƏNDİRİLMƏSİ

Kənd təsərrüfatı məhsullarının istehsalında torpaq resurslarından sonra növbəti rol oynayan ən mühüm amillərdən biri su ehtiyatları hesab olunur. Təsadüfi deyildir ki, dünya üzrə sudan istifadənin 70%-ə qədəri məhz kənd təsərrüfatının payına düşür. Torpaq resursları olmadan kənd təsərrüfatında məhsul istehsalının həyata keçirilməsini təsəvvür etmək, demək olar ki, qeyri-mümkündür. Su resursları olmadıqda isə bütövlükdə kənd təsərrüfatında məhsul istehsalını, yalnız dəmyə əkinçilik şəraitində inkişaf etdirmək mümkündür və bundan əlavə heyvandarlıq məhsullarının istehsalını da əlavə etsək, kənd təsərrüfatının inkişafını təsəvvür etmək demək olar ki, absurd görünür. AMEA-nın Coğrafiya institutunun baş elmi işçisi, coğrafiya üzrə elmlər doktoru M.A.Abduyevin fikrincə, İAEƏ-də su ehtiyatları və onlardan yararlanmaq imkanları torpaqların azad olunmasına, su ehtiyatlarının idarə edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müəllifin fikrincə, Azərbaycanda su ehtiyatları orta hesabla 30 $km^3$-dir. Bunun 2/3 hissəsi, yəni 20 $km^3$-i tranzit axınının payına düşür, 10 $km^3$-i sərhədlərimiz daxilində formalaşır. Bu ərazilərimizin çaylar, göllər, o cümlədən yeraltı sulardan ibarət olan su ehtiyatları təxminən 780 mln. $km^3$ olaraq hesablanır. Bu isə yerli su ehtiyatlarımızın 20%-ə qədərini təşkil edir. Müəllif tamamilə haqlı olaraq hesab edir ki, işğal dövründə Azərbaycan Tərtərçay, Həkəriçay, Tərtərçayın qolu olan Lepçay, Tutqun çay, Xaçınçay və digər bu kimi böyük çayların su ehtiyatlarından məhrum olduğundan əkin sahələrinin suvarılmasında xüsusilə bitkilərin vegetasiya dövründə çətinliklər yaranırdı. Müəllifin fikrincə, Qarabağ iri çaplı vulkanik süxurların geniş yayıldığı ərazi olduğuna görə yeraltı sularla daha zəngindir və onlar nisbətən dağətəyi ərazilərdə səthə çıxaraq bulaq şəkilində çayları qidalandırır. Hidrokimyəvi xüsusiyyətləri kalsium hidrokarbonatlığına görə onların ümumi codluğu nisbətən aşağıdır və bu çayların suları Azərbaycanda, demək olar ki, ən keyfiyyətli sular hesab olunur. Bundan əlavə, həm də xüsusilə yuxarı hissələrində meyllilik və sululuq çox, axın sürəti böyük olduğundan bu çaylar hidroenerji ehtiyatları ilə zəngindir. Adıçəkilən çayların Azərbaycanın digər sahələrindəki suvarma sistemlərinə daxil olması, eyni zamanda ərazidəki Sərsəng, Suqovuşan, Ağdamkənd, Xaçınçay və s. su anbarları ekoloji bərpa proseslərinin sürətlənməsinə təkan verəcəkdir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda müxtəlif bitkilər becərilir və onların suya tələbatı müxtəlif olmaqla bunlar mahiyyət etibarilə suvarma suyuna olan tələbatın həcminin artmasına gətirib çıxarır. Odur ki, İAEƏ-in zəngin su resurslarından istifadə edilməsi bütövlükdə İAEƏ-də kənd təsərrüfatının inkişafına əlverişli şərait yaratmaq iqtidarındadır. Mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də ondan ibarətdir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun inkişafı və eləcə də iqtisadi potensialın

hərəkətə gətirilməsi kənd təsərrüfatında məhsul istehsalın həcminin artırılması və emal sənayesi müəssisələrinin tikilməsi və digər bu kimi iqtisadi bərpa proseslərin reallaşdırılmasında məhz həmin ərazilərin mövcud çay suları əhəmiyyətli rola malik olacaqdır. Məsələnin maraqlı tərəflərindən biri də ondan ibarətdir ki, Qarabağdakı mövcud çay resursları əsasən təbii şəraitdə formalaşır. Ümumiyyətlə, mövcud su anbarlarını bütövlükdə tədqiqatda nəzərə almasaq, belə qənaətə gəlmək olar ki, Qarabağda aşağıdakı çaylar mövcuddur ki, həmin çaylar əsas etibarilə təbii şəraitdə inkişaf edir. Bu çaylara: Tərtərçay; Qarqarçay; İncəçay; Xaçınçay; Köndələnçay; Quruçay; Ata Kürçay; Həkəriçay; Zabuxçay; Oxucuçay; Bərgüşadçay aiddir.

Məlum olduğu kimi, kənd təsərrüfatında məhsul istehsalının həyata keçirilməsi suvarma baxımından əsas etibarilə iki istiqamətdə reallaşdırılır. Bunlardan biri dəmyə əkinçilik, ikincisi isə suvarma şəbəkələrinin hesabına suvarılan torpaqlarda məhsul istehsalının həyata keçirilməsi hesab olunur. Dəmyə əkinçilik, bir qayda olaraq, mövcud şəraitlə kənd təsərrüfatı məsullarının su resurslarına olan tələbatının ödənilməsini nəzərdə tutur və əsas etibarilə yağış hesabına məhsuldarlığın təmin edilməsinə istiqamətlənir. Ümumiyyətlə, dəmyə əkinçiliyi suvarma əkinçiliyi ilə müqayisədə məhsuldarlığın aşağı olması ilə səciyyələnir. Nəzərə almaq lazımdır ki, dəmyə əkinçiliyi hesabına kənd təsərrüfatında yüksək məhsuldarlığa malik olmaq mümkün deyildir. Eyni zamanda onu da əlavə etmək lazımdır ki, Qarabağda daimi məskunlaşacaq əhalinin məişət sularına olan ehtiyacının ödənilməsi və eləcə də içməli su resurslarına olan tələbatın ödənilməsi, kənd təsərrüfatının suvarma suyuna olan tələbatının ödənilməsi, emal sənayesi müəssisələrinin su resurslarına olan tələbatının ödənilməsi və eyni zamanda Qarabağda turizmin inkişaf etdirilməsi hesabına otelçilik təsərrüfatlarında su resurslarına olan tələbatının ödənilməsi də mühüm əhəmiyyət kəsb edən məqamlardandır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi "Regionların sosial-iqtisadi inkişafı" Statistik məcmuə/2014 – yanvar.

2. Ermənistan – Azərbaycan münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. - Bakı, 2005.

3. Əliyev B.H., Əliyev İ.N. «Azərbaycanda kənd təsərrüfatının bəzi problemləri və onların həlli yolları». Bakı, «Ziya-Nurlan», 2004, 572 s.

4. Quliyev E.A. "Aqrar iqtisadiyyat". Bakı, 2015. "Kooperasiya" nəşriyyatı, 320 s.

5. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M.: " Milli İqtisadiyyatın Dövlət Tənzimlənməsi". Bakı, 2007. 491s.

6. İbrahimov İ.H. "Aqrar sahənin iqtisadiyyatı". Bakı, 2016. 655 s.

7. İbrahimov İ.H. "Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri". «Sada» nəşriyyat, Bakı, 2007. 296 səh.

8. İbrahimov İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri Bakı, 2005. 360 səh.